

*Fəridə HACIYEVA*

## BAYRAĞIMI SEVİRƏM

Bayrağımı sevirəm,
Yaşılı,qırmızını,göyünü.
Bir də,bir də vətənimin,
Ay,ulduzlu göyünü.

Bayrağımı sevirəm,
Qoy ucalsın əllərdə.
Dalğalansın hər zaman,
Nur üzlü könüllərdə.

Bayrağımı sevirəm,
Anamı sevən qədər.
Qürurum, sirdaşımdı,
Ən azı ömrüm qədər.

## UCALDACAM

Bu zamanla baş-başayam,
Namərdi mərddən seçirəm.
Ağlımın iti ucuyla,
Pisi yaxşıdan biçirəm.

Nadanlarla üz-üzəyəm,
Qoymaram bizə güc gələ.
Dürüstlüyü silah tutub,
Məhf edəcəm gülə-gülə.

Bu zamanla baş-başayam,
Cahil başları yıxacam.
Gözəlliyin hikmətini,
Bayraq qədər ucaldacam.

## ALİ BAŞ KOMANDANIM

Ucaldın ucaldıqca,
Ali baş komandanım!
Şanına yazılacaq,
Ən uğurlu dastanım.

Əsrin ləyaqət əri,
Xalqımın igid oğlu!
Yenilməz hünərindən,
Üzümüzə gün doğdu.

Ali baş komandanım!
Ordun bir tarix yazır.
Qarşında müntəzirdi,
Əmrinə hər an hazır.

Yürüşü bir od saçır,
Vuruşu yenilməzdir.
Şəhid ruhu göylərdə,
Vətənim əyilməzdir!

Bizə xoşbəxtlik verdi,
Cəsur, baş komandanım!
Xalqımın məbədgahı,
Vüqarım, mənim andım!

Ali baş komandanım!
Şücaətin danılmaz.
Canım, xan üzlü Şuşam!
Düşmən əlində qalmaz.

## GÜL ÜZLÜ ŞUŞAM

Mən vətənin quluyam,
Cız çəkdiyi yoluyam,
Intiqamla doluyam,
Elim, yurdum, məbədim.

Vətən bizi çağırır,
Yeri-göyü çağırır,
Düşmən qorxaq yağıdır,
Vuruşdu halım, təbim.

Mən çılğınam, coşqunam,
Ey millətim coş, dolan,
Andımda yoxdu yalan,
Belədi təbiətim.

Güvənc yerim, and yerim,
Vay tut düşmənə, yeri,
Doğma beşiyim,yerim,
Dövlətim, sədaqətim.

Şuşam! Gül üzlü Şuşam,
Şip-şirin sözlü Şuşam,
Hər an bir üzlü Şuşam,
Qürurum, məhəbbətim.

## VSSTSSNDİR VSSTSSN

Mənim gücüm,qüdrətim,
Yenilməyən sərvətim,
Ən uca məhəbbətim,
Vətəndir, Vətən!

Ayna üzlü dənizim,
Dalğalı, gül bənizlim,
Keçdiyim yolum, izim,
Vətəndir, Vətən!

Torpağımın hər dəni,
Damarımda, məndədi,
Şücayət, hünər nədi?
Vətəndir, Vətən.

Qəhrəmanım, Poladım,
Könüllərdə Poladım,
Daha adın Poladım!
Vətəndir, Vətən!

Dağlara bax, qürurum,
Hər daşını qorudum,
Mənim yenilməz ordum,
Vətəndir, Vətən!

## MSSN ALIŞDIM

Dərgahımın qapısında,
Könlüm açıldı-açıldı.
Ruhum elə təzələndi,
Gün tək saçıldı-saçıldı.

Əlim uzandı tanrıya,
Göydən mənə səda gəldi.
Allahıma şükr edirəm,
Xoş müjdəli nida gəldi.

Sevdim gələni, gedəni,
Sevgim dünyama qarışdı.
Gözəllikdən göz qamaşdı,
Dönə-dönə mən alışdım.

## HARA APARIR

Dünyama dür səpilir,
İlahinin səsindən.
Yunis Əmrə,Mevlana,
Veysəlin nəfəsindən.

Ruhumda min havacat,
Şah damar tərpənişdə.
Könülləri seyr edən,
Seçilmirəm dərvişdən.

Göz yaşım qəlbə axır,
Bu nə gözəllik Allah!
İlahilər xəzinəm,
Sənə gəlirik Allah!

Halım yerindən qopur,
Havalanıb uçuram.
Bu sədadan zövq alıb ,
Ürəyimi açıram.

Bu səs sirri xüdadır,
Məni məndən qoparır.
Cənnət-məkan olmuşam,
Öz yanına aparır.

## GÖY ÜZÜNÜ GƏZƏRƏM

Bir bağçayam, könlüm çiçək-çiçəkdi,
Nəğmələrim dinir, ləçək-ləçəkdi,
Bu gözəllik xoş məqamdı, gerçəkdi,
Öz dünyama naxış vurub, bəzərəm.

Göyə baxdım, qırçın-qırçın buludlar,
Buludlardan bir xaniman qurublar.
Ürəyimi görən niyə qırıblar,
Əlacsızam, soyuqluğa dözərəm.

Könüllərə nur verənim tanrıdı,
Baş qaldırdım, gördüm, onu tanıdım.
Aman allah! Mən yenidən yarandım,
Bu ruhumla göy üzünü gəzərəm.

## BU GECƏ

Ayın işığıdı nur verir mənə,
Bu gecə ruhumdu məni dindirən.
Könlümün sehrinə düşən özüməm,
O güllü baxçada mənəm gül dərən.

Sevincim, kədərim mənə bəllidi,
Bir yumruq qəlbimin sakinidi o.
Kimsəyə deməRəm kövrək ağrımı,
Sormayın demərəm, bakirədi o.

Ayın işığıdı mənə can atan,
Ulduzlar gecəmin bəri-bəzəyi.
Yuxuya yox deyib şeir yazıram,
Nəğmələr dünyamın gizli özəyi.

## NİYYƏTLƏRİ DÜZƏLDİM

Bu dünyanın min əzabı, min yükü,
Naşı da var, nadan da var içində.
Aqil gərək yeri-göyü tanıya,
Mən çaşmışam seçimdəyəm,seçimdə.

Əl uzatdım, cahil bilib güldülər,
Aram-aram öz yoluma düzəldim.
Səs eyləyib dörd bir yana hay saldım,
Çalışdım ki, niyyətləri düzəldim.

Bu dünyanın min əzabı, min yükü,
Gəlin, gəlin insanlığa köklənək.
Tikan-qanqal qənimimdi, qənimim,
Yer üzünə çiçək əkək, gül əkək.

## EŞQ KÖRPÜSÜN KEÇİRƏM

Ürəyimin sultanı,
Qəlbimin şahı gülüm.
Dağ döşündə bənövşəm,
Göylərin mahı gülüm.

Varsansa mən də varam,
Ömrümün əzəl bütü.
Səni görcək özümü,
Itirirəm büsbütün.

Gözəlliyi bəxş edən,
Tanrıma şükr edirəm.
Əllərin əllərimdə,
Eşq körpüsün keçirəm.

## İLAHİ SƏSLƏNƏNDƏ

Nə gözəllik, nə səda,
Nə incəlik, nə əda.
Toxda ürəyim toxda,
İlahi səslənəndə.

Dünyam əlvan boyanır,
Göydən ayım boylanır.
Ulduzlar da haylanır,
İlahi səslənəndə.

Könüllər dilə gəlir,
Gözəllik gülə gəlir,
Nida bülbülə gəlir
İlahi səslənəndə.

Əfsanədi,nağıldı,
Bağrım dağım-dağımdı,
Aman Allah bayıldım,
İlahi səslənəndə.

Ömrümün andı özüm,
Nura boyandı gözüm,
Coşur, çağlayır sözüm,
İlahi səslənəndə.

## İNCİ GƏZDİM

Ümmanda inci qəzdim,
Könlüm nura boyandı,
Ruhumun hər əzası,
Bircə-bircə oyandı.

Hislərim mələkləndi,
Gəzdim düzü-dünyanı.
Sevgimlə yola çıxdım,
Sevindirdim duyanı.

Ümmanda inci qəzdim,
Gəzdim düzəm yaxama,
Gözəlliyi pay verəm,
Hər qarşıma çıxana.

## PAYIZIN GSSLİŞİ

Payızın sərt üzün görməmişdim heç,
Bağdayam, bir leysan yağış içində.
Hava da bozarıb, göy üzü qara,
Bir nalə, təlatüm coşub içimdə.

Qəribə haldayam,qəribə halda,
Payızın gəlişi qorxudur məni.
Tək-tənha ağaclar göz yaşı tökür,
Bu külək, bu yağış sorğudu, nədi?

Bağdayam, elə bil qış soyuğudu,
Yaman üşüyürəm, soyuq qənimim.
O günəş,o isti hara yox olub,
Nə vaxtsa gələcək, buna əminəm.

## XOŞ DİRSSYSSM

Yazla bahar qarşılaşır,
Gül-çiçəklər aşıb-daşır,
Dünyam yaman yaşıllaşır,
Sevgi dolu bir ürəyəm.

Könlüm dinir, pöhrələnir,
Arzularım çiçəklənir,
Göydən yerə nur ələnir,
Elə dinir, mən gərəyəm.

Bu nə büsat, bu nə hava,
Hey baxıram qov ha qova,
Göz gəzdirib sola-sağa,
Bu yollara xoş dirəyəm.

## GÖZƏLLƏŞİB TƏBİƏTİM

Gecə sakit,hava dalğın,
Tək-tək ulduzlar görünür.
Qırmızılı çaları var,
Göydə buludlar sürünür.

Ağaclar da pöhrələnib,
Mənə əziz, doğma gəlir.
Ay işığı üzə gülür,
Könlümdə ruhum dincəlir.

Nar ağacı baş qaldırıb,
Oda dönüb çiçəkləri.
Xoş qoxulu qızılgülün,
Al-əvandı ləçəkləri.

Bu gecənin qonağıyam,
Yaman tutub söz-söhbətim.
Yerlə-göyün arasında,
Gözəlləşib təbiətim.

## NSSRGİZLSSR

Qışın oğlan çağıdı,
Bağda nərgiz gül açıb.
Nərgizin gözəlliyi,
Təmkinimi qaçırıb.

Ləçəkləri bir nağıl,
Vücudum heyrətdədir.
Bir topa nərgizə bax,
Yeri- göyü titrədir.

Könlümün atəşində,
Bu güllərin payı var.
Tərpəşir əsim-əsim,
Xoş işvəli sayı var.

Qışın günəş töhfəsi,
Qəlbimi isindirir.
Qoxusu müşgü əmbər,
Həzin-həzin dindirir.

Qışın oğlan çağıdı,
Mən sevirəm bu halı.
Nərgizlər düzüm-düzüm,
Yallı gedirlər, yallı.